1_Layout 1 13.10.2018 15:37 Page 1

*Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.*

**İlham ƏLİYEV**


# ƏSGƏR

№ 20 (536)

16 oktyabr 2018-ci il

Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti


## “Sabitliyin, uğurlu inkişafımızın təməlində bizim düşünülmüş siyasətimiz dayanır, eyni zamanda xalq tərəfindən bizim siyasətimizə göstərilən dəstək dayanır”

**Oktyabrın 9-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2018-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilib**



AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı iclası giriş nitqi ilə açıb: “Bu gün biz ilin 9 ayının yekunlarını müzakirə edəcəyik, ilin sonuna qədər görüləcək işlər haqqında danışacağıq. Deməliyəm ki, 2018-ci il ölkəmiz üçün uğurlu il olmuşdur. İlin əvvəlindən qarşımıza qoyduğumuz bütün vəzifələr uğurla və vaxtında icra edilir. Azərbaycan 2018-ci ildə də öz dinamik inkişafını təmin etmişdir və ölkəmiz əmin-amanlıq, sabitlik, təhlükəsizlik şəraitində yaşamışdır.

Bugünkü dünyada vəziyyəti nəzərə alsaq, deməliyik ki, bu gün sabitlik, təhlükəsizlik hər bir ölkə üçün əsas amillərdən biridir. Azərbaycanda isə təhlükəsizlik, əmin-amanlıq, sabitlik qorunur, möhkəmlənir. Sabitliyin, uğurlu inkişafımızın təməlində bizim düşünülmüş siyasətimiz dayanır, eyni zamanda, xalq tərəfindən bizim siyasətimizə göstərilən dəstək dayanır. Dünyada və xüsusilə yaşadığımız bölgədə vəziyyət gərgin olaraq qalır, yeni qarşıdurma, münaqişə ocaqları yaranır. Əvvəlki illərdə yaranmış gərgin vəziyyət, əfsuslar olsun ki, aradan qaldırılmır. Belə olan vəziyyətdə biz əlbəttə ki, özümüzü mümkün olan xarici risklərdən daha da ciddi qorumalıyıq və qoruyuruq. Bir daha qeyd etmək istəyirəm, Azərbaycanda daxili risklər mənbəyi yoxdur və biz öz siyasətimizlə, görülən işlərlə özümüzü mümkün olan təhlükələrdən qoruyuruq və qoruyacağıq. Azərbaycan xalqının rahat həyatını təmin edirik və edəcəyik”.

Respublika Prezidenti öz nitqində ölkəmizin beynəlxalq əlaqələri və xarici siyasəti mövzusuna geniş toxunub: “Bu il bizim iştirakımızla bir neçə önəmli beynəlxalq hadisə baş vermişdir. Onların arasında Xəzər dənizinin hüquqi statusuna dair Konvensiyanın qəbul edilməsini mən xüsusilə qeyd etmək istərdim. Hesab edirəm ki, bu, tarixi sənəddir və bu sənəddə Azərbaycanın milli maraqları tam şəkildə öz əksini tapıb. Xəzəryanı beş ölkə uzun danışıqlardan sonra razılığa gəlibdir. Yəni, bu, onu göstərir ki, bütün ölkələrin maraqları bu Konvensiyada təmin edilib. Hesab edirəm ki, bu, bölgənin, regionun inkişafı, iqtisadi imkanlarının genişləndirilməsi üçün çox önəmli bir sənəddir, çox ciddi hüquqi sənəddir.

Bu il Azərbaycanda Qoşulmama Hərəkatının xarici işlər nazirlərinin böyük konfransı keçirilmişdir. Azərbaycan bu təşkilatda uğurla fəaliyyət göstərir və gələn ildən başlayaraq bu təşkilata, dünyanın ən böyük təşkilatlarından biri olan Qoşulmama Hərəkatına sədrlik edəcəkdir. Bakıda Qoşulmama Hərəkatının Zirvə görüşü keçiriləcəkdir. Biz bu il Avropa İttifaqı ilə əlaqələrimizin inkişafı istiqamətində növbəti ciddi addım atdıq. Bu ilin yayında Avropa İttifaqı ilə Azərbaycan arasında “Tərəfdaşlıq prioritetləri” sənədi imzalanmışdır və hesab edirəm ki, bu, çox önəmli addımdır, önəmli sənəddir. Bu sənəddə bir çox önəmli məsələlər öz əksini tapır. O cümlədən bu sənəddə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı olan müddəalar həm ədalətlidir, həm də bizim mövqeyimizi və maraqlarımızı tam şəkildə ifadə edir. Bu sənəddə göstərilir ki, Azərbaycanın suverenliyi, sərhədlərinin toxunulmazlığı, ərazi bütövlüyü Avropa İttifaqı tərəfindən dəstəklənir. Eyni zamanda, NATO-nun Zirvə görüşünün yekununda qəbul edilmiş bəyannamədə Azərbaycanın ərazi bütövlüyünə dəstək bir daha ifadə edilmişdir. Bütün bu sənədlər Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli işində bizim mövqeyimizi daha da möhkəmləndirir”.

Dövlət başçısı öz nitqində Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması üzrə danışıqların hazırkı vəziyyətinə münasibətini bildirib: “Münaqişə ilə bağlı danışıqların indiki mərhələsi ictimaiyyət üçün bəllidir. Ermənistan tərəfinin cəhdləri nəticə vermədi, Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı danışıqların formatı dəyişməz olaraq qalır. Bu danışıqlar Ermənistan və Azərbaycan arasında aparılıb, aparılır və aparılmalıdır. İki ölkənin xarici işlər nazirlərinin iki görüşü bunu bir daha sübut edir. Son vaxtlar baş vermiş digər hadisələr onu göstərir ki, danışıqlar formatı dəyişməz olaraq qalır və bu münaqişə tezliklə beynəlxalq hüququn norma və prinsipləri əsasında, ölkəmizin ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır. Azərbaycanın ərazi bütövlüyü heç vaxt danışıqların predmeti olmayıb, bu gün də deyil və heç vaxt olmayacaq. Ona görə biz bundan sonra da öz prinsipial mövqeyimizdə qalacağıq”.

Azərbaycan Prezidenti ordu quruculuğunda əldə olunan nailiyyətləri də öz nitqində xüsusi qeyd edib: “Bununla yanaşı, əlbəttə ki, biz öz hərbi qüdrətimizi artırırıq və artıracağıq. Azərbaycan Ordusu dünya miqyasında 50 ən güclü ordu sırasındadır və beynəlxalq reytinqlər də, həyat da bunu göstərir, bizim hərbi uğurlarımız da buna dəlalət edir. Eyni zamanda, bu il Bakıda iki dəfə möhtəşəm hərbi parad keçirilmişdir və bu paradlarda bizim hərbi qüdrətimiz həm xalqımıza, həm dünyaya nümayiş etdirilmişdir. Bu gün Azərbaycan Ordusu ən müasir silahlarla, texnika ilə təchiz edilib, bu proses davam etdirilir. Biz bundan sonra da ən müasir hərbi texnikanı alacağıq, yeni kontraktlar imzalanır. Əvvəlki illərdə imzalanmış kontraktlar əsasında ən müasir silahlar ölkəmizə gətirilir, onların bir hissəsi hərbi paradlarda göstərilib, bir hissəsi göstərilməyib. Demək olar ki, biz bu gün öz hərbi potensialımızı maddi-texniki təchizat baxımından tam təmin etmişik”.

Nitqin məzmununda ölkədə aparılan iqtisadi islahatların da geniş təhlili verilib: “2018-ci ildə iqtisadi sahədə islahatların dərinləşməsi işində çox önəmli addımlar atılmışdır. Hesab edirəm, bu ilin doqquz ayının göstəriciləri deməyə əsas verir ki, biz istədiyimizə nail oluruq. İqtisadi göstəricilərə gəldikdə isə deməliyəm ki, bu ilin doqquz ayında bizim iqtisadiyyatımız, yəni, ümumdaxili məhsul 0,8 faiz artmışdır. Qeyri-neft sektorunda artım isə 1 faizdir. Sənaye istehsalı 2 faiz, qeyri-neft sənayesi isə 10,8 faiz artmışdır. Bu göstərici Azərbaycanda aparılan sənayeləşmə siyasətinin nəticəsidir.

Bildiyiniz kimi, son illərdə kənd təsərrüfatının inkişafına, xüsusilə bölgələrdə məşğulluğun artırılmasına böyük diqqət, qayğı və dəstək göstərilir. Biz kənd təsərrüfatının ardıcıl artımını görürük. Ümid edirəm ki, növbəti illərdə bu artım daha da böyük olacaq. Kənd təsərrüfatı doqquz ayda 4,3 faiz artıb. Hesab edirəm ki, bu da kifayət qədər yaxşı göstəricidir.

İnflyasiya cəmi 2,6 faizdir, əhalinin gəlirləri isə 9,5 faizdir. Yəni, gəlirlər inflyasiyanı üstələyir. İnflyasiyanın aşağı səviyyədə olması, il ərzində daha da düşməsi göstərir ki, bizim maliyyə vəziyyətimiz çox sabitdir və makroiqtisadi vəziyyət möhkəmdir.

Bu ilin doqquz ayında ölkə iqtisadiyyatına 9 milyard dollar sərmayə qoyulmuşdur. Sevindirici hal ondan ibarətdir ki, bu vəsaitin 5,6 milyard dolları qeyri-neft sektoruna qoyulub. Bu, iqtisadiyyatımızın bundan sonra da şaxələndirilməsinə xidmət göstərəcəkdir.

Valyuta ehtiyatlarımız artır. Bu gün bizim valyuta ehtiyatlarımız 45 milyard dollara çatıb. İlin əvvəlindən bəri biz əlavə 3 milyard dollar yığmışıq...

Doqquz ayda xarici ticarət dövriyyəsi 37 faiz artıb. İxrac da təxminən bir o qədər artıb. Bu da çox müsbət haldır. Qeyri-neft ixracı isə təxminən 14 faiz artıb. Hesab edirəm ki, bu da çox gözəl göstəricidir. Bu ilin doqquz ayında ölkəmizdə 85 min daimi iş yeri açılmışdır”.

Dövlət başçısının giriş nitqində ölkəmizin uğurlu enerji siyasətini əks etdirən bir çox məqamlar da vurğulanıb, həmçinin, nəqliyyat dəhlizlərinin yaradılması yönündə görülən işlərdən də danışılıb.

Azərbaycan Prezidenti giriş nitqinin sonunda bunları qeyd edib: “Regionda baş verən hadisələr, bizim təşəbbüsümüzlə icra edilən nəhəng enerji, nəqliyyat layihələri, digər sahələrdə apardığımız işlər siyasi çəkimizi böyük dərəcədə artırıb. Bu gün Azərbaycan çox dəyərli, böyük hörmətə, yüksək beynəlxalq nüfuza malik olan bir ölkədir. Təkcə bizim yaratdığımız imkanlara görə yox, eyni zamanda, bəlkə də, ilk növbədə, ona görə ki, bizim sözümüzlə əməlimiz arasında heç bir fərq yoxdur. Biz prinsipial siyasət aparırıq. Bütün prinsipial məsələlərlə bağlı öz mövqeyimizi ortaya qoyuruq, ölkəmizin milli maraqlarını layiqincə yerinə yetiririk və bundan sonra da bu yolla gedəcəyik”.

İclasda vergilər naziri Mikayıl Cabbarov, nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri Ramin Quluzadə və “Azərxalça” Açıq Səhmdar Cəmiyyətinin İdarə Heyətinin sədri Vidadi Muradov çıxış edərək, hesabat dövründə görülmüş işlər barədə məlumat veriblər.

Dövlətimizin başçısı iclasa yekun vurub. Yekun nitqində o, ölkə həyatının aktual məsələləri, müxtəlif sahələr üzrə islahatların davam etdirilməsi barədə mövqeyini bildirərək, müvafiq tapşırıqlar verib.

## DAXİLİ QOŞUNLARIN HƏRBİ ŞURASININ NÖVBƏTİ İCLASI KEÇİRİLİB

***Daxili İşlər Nazirinin müavini - Daxili Qoşunların Komandanı Daxili Qoşunların qoşun təsərrüfatının qış mövsümünə hazırlığı, ümumiyyətlə, şəxsi heyətin maddi-texniki təminatı, sosial-məişət şəraitinin yaxşılaşdırılması üzrə görülmüş işləri qənaətbəxş qiymətləndirib***




Oktyabrın 2-də Daxili Qoşunların Baş İdarəsində Hərbi Şuranın Daxili Qoşunların qoşun təsərrüfatının qış mövsümünə hazırlığının vəziyyətinə həsr olunmuş növbəti iclası keçirilib.

İclası giriş sözü ilə açan Hərbi Şuranın sədri, Daxili İşlər Nazirinin müavini - Daxili Qoşunların Komandanı general-leytenant Şahin Məmmədov bildirib ki, Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin, o cümlədən Daxili Qoşunların maddi-texniki təminatı, hərbi qulluqçuların sosial-məişət şəraiti və maddi rifahı Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin daim diqqət mərkəzindədir. Belə ki, dövlət büdcəsindən hərbi sahəyə ayrılan xərclərin dəfələrlə artırılması ordumuzun bütün istiqamətlər üzrə potensialının yüksək səviyyəyə çatdırılmasında mühüm rol oynayır.

Vurğulanıb ki, son illər Daxili Qoşunlarda quruculuq işləri sürətlə həyata keçirilməkdədir. Müasir texnika, silah, sursat və xüsusi vasitələr alınaraq şəxsi heyətin istifadəsinə verilib, bir sıra mühüm hərbi obyektlərin açılışı həyata keçirilib, sosialyönümlü obyektlərdə təmir işləri aparılıb və bu işlər hazırda da davam etdirilir.

Həmçinin, 2018-ci ilin ötən dövrü ərzində şəxsi heyətin təminatı mövcud normalara uyğun tam həcmdə həyata keçirilib, texnikanın və xüsusi texnikanın qorunub saxlanılmasında, istismarında ciddi nöqsanlara yol verilməyib, əvvəlki illərdə olduğu kimi cari ildə də xidməti-döyüş tapşırıqlarının maddi-texniki təminatı düzgün təşkil olunub. Qeyd olunan, istiqamətlər Azərbaycan Respublikası Daxili İşlər Nazirinin diqqət mərkəzində saxladığı prioritet məsələlərdəndir.



Daha sonra Daxili Qoşunlar Komandanının müavini - Maddi-texniki təminat İdarəsinin rəisi general-mayor Fəxrəddin Səmədov Daxili Qoşunların qoşun təsərrüfatının qış mövsümünə hazırlığının vəziyyəti haqqında məruzə ilə çıxış edib.

Bildirilib ki, maddi-texniki təminatın hərtərəfli təşkili, hərbi qulluqçuların sosial vəziyyətinin yaxşılaşdırılması qoşunların uğurla inkişaf etməsinə, qarşıya qoyulmuş tapşırıqların keyfiyyətlə və vaxtında yerinə yetirilməsinə böyük təsir göstərir. Bununla əlaqədar, qoşunların hərbi obyektlərində və xidmətaparma yerlərində cari təmir işləri aparılıb, istilik rejiminin tənzimlənməsi məqsədilə quraşdırılmış qazanxana avadanlıqlarına və qurğularına əsaslı texniki qulluq göstərilib, nasaz olanları yeniləri ilə əvəz olunub. Ali Hərbi Məktəbin və hərbi hissələrin içməli suya olan tələbatlarının ödənilməsi məqsədilə yeni su xətləri çəkilib, köhnə su boruları yeniləri ilə əvəzlənib.

Qoşunların döyüş hazırlığının yüksək səviyyədə saxlanılması məqsədilə nəqliyyat vasitələrinin qış mövsümündə fasiləsiz istifadəsini təmin etmək üçün müvafiq tədbirlər həyata keçirilərək, park təsərrüfatlarının hazırlığı yoxlanılıb. Şəxsi heyətlə mövsümi texniki xidmətin keçirilməsi, qış dövründə nəqliyyat vasitələrinin istismarı qaydaları, texniki xidmət və təmir işləri zamanı təhlükəsizlik tədbirlərinə riayət olunması mövzularında məşğələlər keçirilib. Qış mövsümünə keçidlə bağlı şəxsi heyətin isti geyim əmlakları ilə təmin olunması və müəyyən edilmiş normaya uyğun qida menyusunda müvafiq dəyişikliklərin aparılması da nəzərdə tutulub.

General-mayor F.Səmədov çıxışının sonunda soyuq hava şəraitində şəxsi heyətin sağlamlığının qorunması, qoşun təsərrüfatının qış mövsümünə hazırlığı ilə əlaqədar mövcud nöqsanların aradan qaldırılması və bununla bağlı qabaqlayıcı profilaktik tədbirlərin həyata keçirilməsi barədə məruzə edib.

Hərbi Şuranın iclasında bir sıra hərbi hissə komandirlərinin maddi-texniki təminat üzrə müavinlərinin də mövcud vəziyyət, fəaliyyətdə yol verilmiş nöqsan və çatışmazlıqların yaranma səbəbləri və onların aradan qaldırılması istiqamətində görülən işlər barədə hesabat-çıxışları dinlənilib.

İclasa yekun vuran general-leytenant Ş.Məmmədov qış mövsümünə hazırlıqla əlaqədar şəxsi heyətin maddi-texniki və tibbi təminatı, sosial-məişət şəraitinin yaxşılaşdırılması və texnikanın istisмarı üzrə tədbirlər planında nəzərdə tutulmuş işlərin tam olaraq başa çatdırılması üçün vəzifəli şəxslərə tapşırıqlarını verib.

Əminliklə bildirilib ki, Daxili Qoşunların şəxsi heyəti dövlət qayğısına cavab olaraq yaradılan şəraitdən düzgün istifadə edəcək, təhkim olunan əmlakın qorunub saxlanılmasını təmin edəcək, yüksək döyüş hazırlığını saxlamaqla, qış mövsümünü uğurla başa vuracaqdır.

**baş leytenant Xədicə Hacızadə**

2_Layout 1 15.10.2018 10:08 Page 1



# 25032 SAYLI HƏRBİ HİSSƏNİN QADINLAR ŞURASI ÜZƏRİNƏ DÜŞƏN VƏZİFƏLƏRİ LAYİQİNCƏ YERİNƏ YETİRİR



Bu gün Daxili Qoşunlarda daimi fəaliyyət göstərən bir neçə ictimai təşkilat var. Sözügedən ictimai təşkilatlardan biri də qadınlar şurasıdır.

Şuranın əsas vəzifələri qadın hərbi qulluqçuların hərbi-vətənpərvərlik və mənəvi tərbiyəsində, kollektivdə yoldaşlıq münasibətlərinin möhkəmləndirilməsində, onlar arasında hərbi ənənələrə, etika qaydalarına uyğun qarşılıqlı hörmətin, həmçinin, tələbkarlığın bərqərar olunmasında, hərbçi ailələrinin mədəni-istirahət, sosial-məişət məsələlərinin həllində, eyni zamanda onların ictimai fəaliyyətə cəlb olunmasında komandirlərə köməklik göstərilməsidir. Bu mənada, 25032 saylı hərbi hissədə fəaliyyət göstərən qadınlar şurası da üzərinə düşən vəzifələri müvəffəqiyyətlə icra edir.

Gizir Fərqanə Quliyeva artıq üç ildir ki, hərbi hissənin qadınlar şurasının sədridir və o, sədr kimi qarşıya qoyulmuş tapşırıqların öhdəsindən layiqincə gəlir. Hərbi kollektivdə böyük nüfuza, hörmətə malikdir. Şəxsi heyətə qayğı ilə yanaşır, onların sosial-məişət şəraiti ilə yaxından maraqlanır, bu sahədə problemlərin aradan qaldırılması istiqamətində səylərini əsirgəmir. Onun sözlərinə görə, kollektivdə xidmət edən, ailə vəziyyətindən asılı olmayaraq, bütün qadın hərbi qulluqçular qadınlar şurasına üzv ola bilər. Ailə üzvlərinin ehtiyaclarını, əhval-ruhiyyələrini öyrənmək, hərbi qulluqçuların həyat yoldaşlarının işlə təmin olunmalarına, eləcə də övladlarının uşaq məktəbəqədər müəssisələrinə göndərilməsinə köməklik etmək qadınlar şurasının vəzifələrindəndir.

Sadalanan vəzifələrin həyata keçirilməsində qadınlar şurası sədrinin müavini çavuş Ülkər Əsədovanın və şuranın digər üzvlərinin əməyi də təqdirəlayiqdir. Şura sədrinin müavini və üzvləri tapşırıqların qadın hərbi qulluqçulara çatdırılmasında iştirak edir, bu istiqamətdə bütün zəruri tədbirləri görürlər. Onlar zabit yataqxanasında yaşayan hərbi qulluqçuların ailə üzvlərilə möhkəm ailə bağlarının, qarşılıqlı hörmətin yaradılması istiqamətində işlər aparır, müvafiq əyləncəli proqramlar, ekskursiyalar təşkil etməklə mədəni istirahətlərini təmin etmək kimi vəzifələri uğurla yerinə yetirirlər.

**kapitan Teymur Əlizadə**

# DÖYÜŞ HAZIRLIĞINI DAİM YÜKSƏK SƏVİYYƏDƏ SAXLAYAN XÜSUSİ TƏYİNATLI DƏSTƏ

***Hərbi hissələrdə döyüş hazırlığının qorunub saxlanılmasında, qarşıya qoyulan döyüş tapşırıqlarının keyfiyyətlə icra olunmasında xüsusi təyinatlı dəstələrin şəxsi heyətinin rolu danılmazdır. Bu baxımdan Daxili Qoşunların 16075 saylı hərbi hissəsinin xüsusi təyinatlı dəstəsinin fəaliyyəti diqqətəlayiqdir.***



Bu günlərdə 16075 saylı hərbi hissədə xidməti ezamiyyətdə olarkən hərbi hissə komandiri mayor Emil Rüstəmov xüsusi təyinatlı dəstənin xidməti-döyüş fəaliyyətinin yekunlarına görə fərqləndiyini, burada yüksək nizam-intizamın bərqərar olduğunu bildirdi.

Dəstə komandiri vəzifələrini icra edən kapitan Yasin Cəfərovla xidmətin təşkili, şəxsi heyətlə iş prinsiplərinin əsası mövzusunda söhbətləşərkən, həqiqətən də deyilənlərin doğruluğuna bir daha əmin olduq. Xüsusi təyinatlı dəstənin əsas vəzifələrindən birinin qəflətən qarşıya çıxan döyüş tapşırıqlarının yerinə yetirilməsi olduğunu nəzərə çatdıran komandir bunun üçün bütün zəruri tədbirlərin görüldüyünü söylədi.



Yüksək nailiyyətlərin əldə olunması üçün planlaşdırılmış tədbirlərin məqsədyönlü, dəqiq və keyfiyyətlə icra olunmasına önəm verilir. Gündəlik fəaliyyətdə müxtəlif məşğələlər üçün ayrılmış vaxtlarda məşğələlərin keçirilməsi dəstə komandiri tərəfindən nəzarətdə saxlanılır. Şəxsi heyətin xüsusi-taktiki, fiziki və atəş hazırlığına xüsusilə diqqət yetirilir. Nəzərdə tutulmuş proqramın yerinə yetirilməsi ilə hərbi qulluqçuların fiziki gücünün və peşəkarlığının artırılması həyata keçirilir.

Dəstədə döyüş hazırlığının yüksəldilməsinə nail olmaq üçün hərbi qulluqçular müxtəlif “Həyəcan” siqnalları ilə yoxlanılır. Onların bu vaxt ərzində təyin olunan yerlərdə toplanması və tapşırığa uyğun olaraq hər hansı fəaliyyətin yerinə yetirilməsi məşq etdirilir.

“Dəstə reyd fəaliyyətində” xüsusi-taktiki təlimində xüsusi həmlə qrupunun fərqləndiyini vurğulayan kapitan Y.Cəfərov keçirilən məşğələlərin mənimsənilməsində qrup komandiri baş leytenant Nemət Ağayevin böyük zəhmətinin olduğunu bildirdi. İntizamlı, həm də özünə qarşı tələbkar olan baş leytenant N.Ağayevin tabeliyindəki hərbçilərə əsl nümunə olduğunu nəzərimizə çatdırdı. Onun zəhmətinin nəticəsidir ki, pusqu, basqın, yerləşmə məntəqəsinin təşkili, taktiki yürüşlər kimi fəaliyyətlərdə şəxsi heyət peşəkarlıq göstərir. Əsasən gecə saatlarında keçirilən bu təlimlər hər bir hərbi qulluqçudan maksimum dərəcədə dözümlülük, səssizliyə riayət etmə, təmkin, çeviklik tələb edir.

“Əsas məqsədimiz şəxsi heyətdə peşəkarlıq xüsusiyyətlərinin daha da təkmilləşdirilməsidir”, - deyən dəstə komandiri bu yöndə üzərilərinə böyük məsuliyyətin düşdüyünü vurğulamağı unutmadı: “Bir komandir kimi şəxsi nümunə, özünə qarşı tələbkarlıq, eyni zamanda tabeliyində olan hərbi qulluqçulara qayğı və diqqət göstərilməsi prinsipilə xidmət aparıram. Daxili Qoşunların hərbi qulluqçusu olmaq çox şərəflidir. Tabeliyimdə olan hərbi qulluqçuları məhz bu ruhda istiqamətləndirir, onlara komandanlıq tərəfindən verilən bütün tapşırıqların icrasına mənəvi-psixoloji cəhətdən hər zaman hazır olmaları fikrini aşılayıram, şəxsi heyətə göstərilən yüksək qayğıya görə cənab Komandana və hərbi hissə komandanlığına dərin minnətdarlığımı bildirir, üzərimizə düşən vəzifələrin icrasına bundan sonra da layiqincə yanaşacağımıza söz verirəm”.

**leytenant Nigar Ağayeva**

## XİDMƏTDƏ NAİLİYYƏTLƏR

# HƏRBİ QULLUQÇULARIMIZIN SAYIQLIĞI NƏTİCƏSİNDƏ QADAĞAN OLUNMUŞ ƏŞYALAR AŞKARLANIB

***67987 saylı hərbi hissənin hərbi qulluqçuları hər zaman olduğu kimi tapşırıqların yerinə yetirilməsi zamanı ayıq-sayıqlıq nümayiş etdirirlər.***





Bu günlərdə Bakı şəhərində cüdo üzrə Dünya çempionatı keçirilərkən Milli Gimnastika Arenasında nəqliyyatın yoxlanılması üzrə xidmətə cəlb olunan 67987 saylı hərbi hissənin kimya və mühəndis xidmətində zabit kapitan Polad Şirinov tərəfindən avtomobilə baxış keçirilərkən, bir ədəd “beşbarmaq” aşkar olunub. Tapılmış vasitə dərhal aidiyyəti üzrə yerli polis orqanına təhvil verilib.

Növbəti qanun pozuntusunun qarşısı həmin hərbi hissənin müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu, xüsusi təyinatlı dəstədə radiotelefonçu-istehkamçı vəzifəsində olan baş çavuş Vüsal Yusifov tərəfindən alınıb. O, Bakı Olimpiya Stadionunda xidmət aparan zaman avtomobilə baxış keçirərkən, bir ədəd “beşbarmaq” aşkarlayaraq, aidiyyəti üzrə yerli polis orqanına təhvil verib.

Hərbi hissənin xüsusi təyinatlı dəstəsinin hərbi qulluqçusu çavuş Əhməd Əhmədov tərəfindən avtomobilə baxış keçirilərkən 31 ədəd “Meqa” (rezin başlıqlı) patron götürülərək aidiyyəti üzrə təhvil verilib.

Qeyd edək ki, kapitan P.Şirinov 2003-2005-ci illərdə Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarında müddətli həqiqi hərbi xidmətdə olub. 2005-ci ildən bu günə kimi Daxili Qoşunların 67987 saylı hərbi hissəsində zabit kimi hərbi xidmətini şərəflə davam etdirir.

Nümunəvi xidməti və yüksək nizam-intizamı ilə daim yoldaşlarına nümunə olan baş çavuş V.Yusifov 2008-2009-cu illərdə Müdafiə Nazirliyinin “N” saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmətdə olub. 2012-ci ildən Daxili Qoşunların 67987 saylı hərbi hissəsinin müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusudur.

Hərbi hissə komandanlığı tərəfindən müsbət xarakterizə olunan və nümunəvi xidməti ilə fərqlənən digər hərbi qulluqçumuz çavuş Ə.Əhmədov 2011-2012-ci illərdə Daxili Qoşunlarda müddətli həqiqi hərbi xidmətdə olub. 2012-ci ildən Daxili Qoşunlarda müddətdən artıq həqiqi hərbi xidmətdədir.

Xidmətdə ayıq-sayıqlıq nümayiş etdirən hər üç hərbi qulluqçumuzla fəxr edir və xidməti fəaliyyətlərində uğurlar arzulayırıq.

**leytenant Nigar Ağayeva**

# HƏRBİ HİSSƏNİN TİBB PERSONALI VƏZİFƏ BORCLARINA MƏSULİYYƏTLƏ YANAŞIR

***Bu gün Daxili Qoşunların şəxsi heyəti üzərinə düşən bütün növ tapşırıqların öhdəsindən layiqincə gəlir. Əlbəttə ki, nailiyyətlərin əldə olunmasında bir neçə mühüm faktor var. Bunlardan biri də şəxsi heyətin sağlamlığı və bu istiqamətdə görülən qabaqlayıcı profilaktik tədbirlərdir. Daxili Qoşunların 67987 saylı hərbi hissəsinin tibb personalı da vəzifə borclarına məsuliyyətlə yanaşır, qarşıya qoyulmuş tapşırıqları müvəffəqiyyətlə yerinə yetirir.***



Tibb xidmətinin rəisi tibb xidməti mayoru Ariz Abdullayev şəxsi heyətin sağlamlığının qorunması barədə məlumat verərkən bildirdi ki, gündəlik olaraq xidmət öz işini hissə komandiri tərəfindən təsdiq olunmuş plan əsasında təşkil edir. Onun sözlərinə görə, xidməti müşavirə zamanı görüləcək işlərin bölgüsü aparılır, hər bir zabitə aidiyyəti üzrə tapşırıqlar verilir. Gündəlik olaraq qarovul xidmətinə, eləcə də hissənin digər naryad növlərinə cəlb olunmuş şəxsi heyət tibbi müayinədən keçir. Sağlamlığında problem olan hər hansı bir hərbi qulluqçu aşkar olunarsa, dərhal xidmətdən azad olunur, yardım göstərilir, ehtiyac duyulduqda tibb məntəqəsinə ambulator müalicəyə qəbul olunur. Tibb xidmətinin rəisi sentyabrın 19-da hərbi qospitalda qan və qan əvəzedici preparatların ehtiyatının yaradılması, eləcə də donorluq məqsədilə 10 nəfər hərbi qulluqçunun ilkin tibbi müayinədən keçirilərək Azərbaycan Respublikasının Müdafiə Nazirliyinin Mərkəzi Klinik Qospitalına göndərilməsinin təmin olunduğunu bildirdi. Həmçinin, Daxili Qoşunların Təlim Mərkəzində nümayiş olunan xüsusi-taktiki təlimdə iştirak edən atıcı-sanitarlarla öncədən məşğələlərin keçirildiyini, tibb çantalarının tam komplektləşdirilməsinin bir daha yoxlanıldığını söylədi. Bundan başqa, Daxili Qoşunlar Komandanının 1-ci müavini - Qərargah rəisinin müvafiq göstərişinə əsasən, tibb sahəsinə marağı olan müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları ilə sentyabrın 17-dən atıcı-sanitar hazırlanması kursu başlanıb. Kurs oktyabr ayının 17-dək davam edəcək. Tibb məntəqəsinin rəisi t/x. kapitanı Asəf Yolçuyev, həkim-terapevt t/x. baş leytenantı Sevinc Cəfərova və həkim-terapevt t/x. leytenantı Aynur Qədimova kursa cəlb olunan şəxsi heyətə həm nəzəri, həm də praktiki olaraq məşğələlər keçirlər. Məşğələlərdə ilkin tibbi yardımın göstərilməsi üsulları dərindən tədris olunur.



Tibb məntəqəsinin digər hərbi qulluqçuları sanitar-dezinfektorlar - gizir Gültəkin Xamrayeva və kiçik çavuş Məhəbbət Zeynalova həftə ərzində əsgər kazarmalarında, bölmələrdə, qarovul məntəqəsində, qərargah binasında mütəmadi olaraq dezinfeksiya və dezinseksiya işləri aparırlar. Feldşer kiçik gizir Zülfiyyə Cəlilova isə əczaxanadan alınan dərmanların düzgün istifadəsinə, habelə tibbi avadanlıqların saz vəziyyətdə saxlanılmasına və sterilizasiyasına diqqət yetirir.

Bir sözlə, görülən işlər şəxsi heyətin səhhətinin etibarlı əllərdə olduğunu deməyə əsas verir.

**kapitan Teymur Əlizadə**

3_Layout 1 13.10.2018 16:32 Page 1



ŞƏHİDLƏRİMİZ

# VƏTƏN UĞRUNDA...

***Daxili Qoşunların respublikamızın ərazi bütövlüyü uğrunda keçdiyi döyüş yolu qəhrəmanlıq nümunələri ilə zəngindir. Ağdərə rayonunun Aterk kəndinin (indiki Həsənriz, hazırda Kəlbəcər rayonunun inzibati tərkibindədir, işğal altındadır – A.Ə.) müdafiəsi zamanı igid döyüşçülərimizin göstərdiyi qəhrəmanlıqlar məhz bu qəbildəndir. Belə ki, qoşunların 17072 saylı hərbi hissəsinin onlarla döyüşçüsü bu kəndin müdafiəsi zamanı mühasirəyə düşməsinə baxmayaraq, düşmənə təslim olmamış və son damla qanlarınadək vuruşaraq şəhidlik zirvəsinə yüksəlmişlər. Bu qəhrəman oğulların bir qisminin nəşi erməni vəhşiləri tərəfindən tanınmaz hala salındığından, Bakıdakı Şəhidlər Xiyabanında qardaşlıq məzarında dəfn edilmiş və onların şərəfinə qəbirüstü abidə ucaldılmışdır.***

***Belə qəhrəmanlardan biri də Daxili Qoşunların gizir hərbi qulluqçusu, şəhid Çərkəz Həsənovdur.***



ŞƏHİD ÇƏRKƏZ HƏSƏNOV

Gizir Çərkəz Muxtar oğlu Həsənov 1966-cı il fevral ayının 21-də Qazax rayonunun Xanlıqlar kəndində anadan olub. Muxtar kişinin və Bəsti ananın böyüdüb tərbiyə etdiyi altı övladdan ən kiçiyi və ailənin sonbeşiyi idi. Çərkəz səkkizillik təhsilini doğma Xanlıqlar kənd orta məktəbində başa vurduqdan sonra, Gürcüstan Respublikasının Rustavi şəhərindəki peşə məktəblərindən birində "elektrik qaynaqçısı" ixtisası üzrə təhsil alıb. Ç.Həsənov bu təhsil ocağını bitirdikdən sonra Sovet ordusuna hərbi xidmətə çağırılır. 1984-1986-cı illərdə Sovet Sosialist Respublikaları İttifaqı Silahlı Qüvvələrinin Çexoslavakiyada dislokasiya olunmuş hərbi hissələrinin birində iki il müddətli həqiqi hərbi xidmət keçir. Sonra o, yenidən Rustavi şəhərinə qayıdaraq, burada yerləşən həbsxanada mühafizəçi vəzifəsində müddətdən artıq həqiqi hərbi xidmətə başlayır.

Bədnam qonşularımız tərəfindən müqəddəs torpaqlarımız işğala məruz qaldığı bir dövrdə gizir Ç.Həsənov canından çox sevdiyi doğma Azərbaycana qayıdaraq Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının 5477 (17072) saylı hərbi hissəsində bölüyün başçavuşu kimi xidmətini davam etdirib.

Qoşunlarda xidmət etdiyi müddət ərzində peşəkar hərbçiyə xas olan müsbət xüsusiyyətlərinə görə yoldaşları arasında böyük hörmət və nüfuza sahib olmuş, müəyyən bəhanələrlə döyüş tapşırığını yerinə yetirməkdən yayınmaq istəyənlərə qarşı barışmaz mövqe tutmaqla, şəxsi heyətin hərbi-vətənpərvərlik hissinin və döyüş ruhunun yüksəldilməsində daima yaxından iştirak edib.

Çərkəz xidmət etdiyi hərbi hissənin tərkibində qızğın döyüşlərin getdiyi Kəlbəcər və Ağdərə rayonlarına ezam olunmuş, bir sıra kəndlərin müdafiəsində fəal iştirak etmiş və hərbi əməliyyatlar zamanı özünü qorxmaz döyüşçü kimi göstərərək, gənc əsgərlərə nümunə olub. O, təkcə düşmənlə döyüşmürdü, eyni zamanda bölüyün başçavuşu kimi şəxsi heyətin qayğısına da qalırdı.

1992-ci ilin iyul ayının 18-də Çərkəz tərkibində xidmət etdiyi bölüklə birgə qızğın döyüşlərin getdiyi Ağdərə rayonunun Umudlu və Aterk (indiki Həsənriz) yaşayış məntəqələri ətrafındakı mövqelərimizin möhkəmləndirilməsi və müdafiəsi üçün ezam olunur.

**19 iyul 1992-ci il.** Səhər saat 09:50-də təpədən-dırnağadək silahlanmış daşnak qüvvələri Ağdərə rayonunun Umudlu kəndi ətrafındakı yüksəkliklərdə olan mövqelərimizi güclü artilleriya atəşinə tutaraq buranı ələ keçirirlər. Bununla da tərkibində Çərkəzin də olduğu və Aterk yaşayış məntəqəsində döyüş növbəsi çəkən onlarla hərbi qulluqçumuz düşmən qüvvələrinin mühasirəsinə düşür. Bundan sonra düşmənin Aterk üzərinə güclü hücumu başlayır. Gizir Ç.Həsənov və döyüşçü yoldaşları mühasirədə qalmalarına və kənardan heç bir dəstəyin olmamasına baxmayaraq, düşmənə təslim olmamış, son damla qanlarınadək vuruşaraq qəhrəmancasına şəhid olmuşlar.

Çərkəz ailəli idi. Muxtar və İsmət adlı iki oğul övladı yadigar qalıb.

Azərbaycan Respublikası Prezidentinin 10 mart 2017-ci il tarixli Sərəncamı ilə gizir Çərkəz Həsənov dövlətin ərazi bütövlüyünün təmin olunmasında iştirak etdiyinə, döyüş zamanı igidlik göstərdiyinə, öz xidməti vəzifələrini və hərbi hissə qarşısında qoyulmuş tapşırıqları yerinə yetirərkən fərqləndiyinə görə "Vətən uğrunda" medalı ilə (ölümündən sonra) təltif edilib. (Medal 17.03.2017-ci il ta-rixdə Daxili Qoşunların Baş İdarəsində təşkil olunmuş təntənəli mərasim zamanı Daxili İşlər Nazirinin müavini - Daxili Qoşunların Komandanı general-leytenant Şahin Məmmədov tərəfindən şəhidin həyat yoldaşı, Daxili Qoşunların veteranı, ehtiyatda olan gizir Elmira Yusufovaya təqdim olunub).



Çərkəzin hərbçi yoldaşları onun əsl döyüşçüyə xas olan müsbət keyfiyyətlərini bu gün də böyük qürur hissi ilə xatırlayırlar. Vaxtilə şəhid silahdaşımızla birgə xidmət edən Natiq Alməmmədov (hazırda Daxili Qoşunların veteranı, ehtiyatda olan baş leytenant - A.Ə.) cəsur döyüşçü ilə bağlı xatirələrini bizimlə bölüşərkən bunları dedi: "Çərkəzi çox yaxşı tanıyırdım. Xaraktercə dəliqanlı, mərd oğlan idi. Gözəl ailə başçısı, eyni zamanda da Vətənini sevən, müqəddəs torpaqlarımız uğrunda canını qurban verməyə hər an hazır olan bir insan idi. Aterkə bölüyün başçavuşu kimi getmişdi. Şəxsi heyətin təminatına o baxırdı. Əsgərlərin qayğısına qalardı. Öz işini sevən, olduqca məsuliyyətli insan idi. Vaxtlı-vaxtında işlərini görərdi. Həm də xoşxasiyyətli idi. Yoldaşları ilə çox mehriban davranardı. Müsbət keyfiyyətlərinə görə kollektiv arasında böyük hörməti vardı".

N.Alməmmədov şəhid olmuş silahdaşlarını heç zaman unutmadığını qeyd edərək, onların əziz xatirəsinin xalqımızın qəlbində daim yaşayacağını bildirdi.

Böyük fəxr hissi ilə qeyd edə bilərik ki, şəhid gizir Çərkəz Həsənovun oğlu Muxtar Həsənov bu gün Daxili Qoşunların sıralarında müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi xidmət edərək atasının şərəfli peşəsini layiqincə davam etdirir. Çavuş M.Həsənov işğal altındakı yurd yerlərimizin azad edilməsi uğrunda son damla qanınadək döyüşməyə və şəhidlərimizin intiqamını mənfur düşmənlərimizdən almağa hər an hazır olduğunu deyir: "Atam canından çox sevdiyi Vətənimizin azadlığı və ulu babalarımız tərəfindən bizlərə miras qalan müqəddəs torpaqlarımız uğrunda şəhid olub. Qardaşım İsmət və mən atamızla fəxr edir və qürur duyuruq. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin ilk əmri ilə hər ikimiz döyüşə getməyə, işğal olunmuş torpaqlarımızı azad etməyə və atamızın timsalında bütün şəhidlərimizin qisasını erməni cəlladlarından almağa hər an hazırıq!".

Şəhid silahdaşımız barədə məlumata Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəsmi internet saytında rast gəlmək olar.

Bundan əlavə, gizir Ç.Həsənova məxsus bir sıra sənəd və əşyalar Daxili Qoşunların Muzeyində eksponat olaraq nümayiş etdirilir.

Ana Vətənin keşiyində mətin dayanaraq, canlarını müqəddəs torpaqlarımız uğrunda qurban verən gizir Çərkəz Həsənov kimi igid oğullarımızın şərəfli ömür yolu bugünkü gənc və yeniyetmələrimiz üçün əsl örnəkdir.

**Allah rəhmət eləsin!**

**kapitan Anar Əhmədov**

# 18 oktyabr - Azərbaycan Respublikasının Dövlət müstəqilliyi günü



MÜSTƏQİL DÖVLƏTİMİZLƏ FƏXR EDİRİK!

Bu il oktyabrın 18-də Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpa olunmasının 27-ci ildönümü tamam olur. 1991-ci il oktyabrın 18-də Azərbaycan Respublikasının Ali Soveti "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktı qəbul edib. Həmin tarixdən etibarən ölkəmizin dövlətçilik tarixində yeni bir mərhələ başlayıb. Azərbaycan Xalq Cümhuriyyətinin (1918-1920) tarixi varisi olan respublikamız 1991-ci il oktyabrın 18-də öz suverenliyini bərpa etməklə, azad və müstəqil yaşamaq seçimini bütün dünyaya bəyanladı.

Azərbaycan xalqı öz müstəqilliyinə qovuşmaq üçün çətin sınaqlardan, sarsıntılardan və təlatümlərdən keçib. Tarixən heç bir xalq öz azadlığını asanlıqla əldə etməyib. Müstəqil dövlətə sahib olmaq mübariz, yenilməz iradəyə malik, dövlətçilik təfəkkürünün daşıyıcısı olan, zəngin mənəvi irsindən ruhlanan, milli idealları naminə qurban verməyi bacaran xalqların ucaldığı şərəfli zirvədir. Qürurla qeyd etmək olar ki, Azərbaycan xalqı da məhz bu keyfiyyətləri sayəsində müstəqil dövlət qurmağa nail olub, öz müqəddəratı ilə bağlı verdiyi qərarı həyata keçirib və beləliklə, beynəlxalq ictimaiyyətin hörmət və rəğbətini qazanıb.

1920-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin faciəvi süqutundan sonra bolşevizm işğalı, "qırmızı terror" mərhələsini yaşayan, Sovet Sosialist Respublikaları İttifaqının (SSRİ) tərkibinə məcburən daxil edilən respublikamız öz tarixinin məşəqqətli, keşməkeşli və ziddiyyətli illərini yaşadı. Sovet dövründə xalqımıza tarixini unutdurmağa çalışdılar, onu dini inancından ayırmağa cəhd etdilər, xeyli sayda ziyalımız repressiyalara məruz qaldı, xarici ölkələrə mühacirət etmiş soydaşlarımız Vətən həsrəti ilə yaşadılar, onlara doğma yurdu ilə əlaqə saxlamağa belə imkan verilmədi. Həmin dövrdə Azərbaycan torpaqlarının bir qismi ittifaq rəhbərliyinin qərarı ilə Ermənistana birləşdirildi, Dağlıq Qarabağda ermənilərə muxtariyyət statusu verilməklə, gələcək üçün separatizm ocağı yaradıldı. Bununla yanaşı, Ermənistan ərazisində tarixən yaşamış və oranın əzəli sakinləri olan azərbaycanlılar sovet dövründə mərhələ-mərhələ deportasiya edildilər, doğma torpaqlarından ayrı düşdülər.

Ancaq onu da qeyd etmək lazımdır ki, xalqımız SSRİ-nin tərkibində müəyyən buxovlar içərisində yaşasa da, öz dilini, mədəniyyətini, adət-ənənələrini qoruya bildi, təhsilimiz, elmimiz, iqtisadiyyatımız, sosial infrastrukturumuz milli kadrlar sayəsində inkişaf etdi və bununla da gələcək müstəqillik üçün lazımi potensial fomalaşdı.

1988-ci ildə Ermənistanın respublikamıza qarşı ərazi iddialarının başlanması, Dağlıq Qarabağda erməni separatizminin baş qaldırması və bütün bunlara SSRİ mərkəzi hakimiyyət orqanlarının ikiüzlü, riyakar yanaşması Azərbaycanda milli dirçəliş hərəkatını alovlandırdı. Ermənistandan bütün azərbaycanlıların qovulması, Dağlıq Qarabağda və sərhəd rayonlarında erməni silahlı dəstələrinin soydaşlarımıza qarşı törətdikləri zorakılıqlar xalqımızı ayağa qaldırdı. Milli dirçəliş hərəkatı milli şüurun oyanışına təkan verdi, xalqın əksər hissəsi anlamağa başladı ki, nicat yolu totalitar quruluşlu dövlətdən qurtulmaq və müstəqilliyə qovuşmaqdır. Milli dirçəliş hərəkatı tədricən müstəqillik uğrunda mübarizəyə çevrildi.

1990-cı ilin 20 Yanvar hadisələri zamanı öz vətəndaşlarına qarşı hərbi güc tətbiq edərək, günahsız insanları qətlə yetirən SSRİ ordu hissələri xalqımızın mübarizə əzmini, iradəsini qıra bilmədi. 20 Yanvar şəhidləri milli azadlığımız, haqq işimiz uğrunda həyatlarını qurban verdilər. Onlar dövlətçilik tariximizə şərəfli bir səhifə yazdılar.

1991-ci ilin oktyabr ayı ərəfəsində artıq SSRİ kimi hegemon bir ölkə dağılma və parçalanma mərhələsini yaşayırdı. Bu proses tarixi qanunauyğunluq kimi qiymətləndirilə bilər. Tarixən imperiya mahiyyətli dövlətlər süquta məhkumdurlar. Azərbaycan onun istiqlalını istəməyən xarici və daxili qüvvələrin təzyiqinə və təxribatlarına baxmayaraq, Ermənistanın hərbi təcavüzünün davam etdiyi bir vəziyyətdə öz müstəqilliyinin bərqərar olmasını gerçəkliyə çevirdi.

Azərbaycanın dövlət müstəqilliyini ilk tanıyan ölkə qardaş Türkiyə oldu. Bu faktın özü də tarixi qanunauyğunluğun təzahürüdür. Bu mühüm addım Azərbaycanın beynəlxalq miqyasda tanınmasına ciddi zəmin yaratdı.

1992-ci ilin mart ayının 2-də Azərbaycan Respublikası Birləşmiş Millətlər Təşkilatına üzv qəbul olundu. Beləliklə, Azərbaycanın dövlət müstəqilliyi dönməz xarakter aldı.

Azərbaycanın müstəqilliyinin ilk illəri çox gərgin bir dövr kimi yadda qalıb. Torpaqlarımızın işğalı, hakimiyyət böhranı, siyasi qarşıdurmalar, qeyri-sabit sosial-iqtisadi durum xalqımız üçün ağır anlar idi. Hər bir xalq üçün müstəqilliyin qorunub saxlanılması onun əldə edilməsi qədər çətin sınaqdır. 1993-cü ilin iyun ayının 15-də böyük dövlət xadimi, Milli Lider Heydər Əliyevin respublikamızda siyasi hakimiyyətə qayıdışı ilə dövlətçiliyimiz xilas olundu, ölkədə hakimiyyət böhranına, daxili qarşıdurmalara son qoyuldu, dövlət quruculuğu prosesi geniş vüsət aldı, iqtisadi inkişafımız üçün mühüm addımlar atıldı, keyfiyyətcə yeni ordu formalaşdırıldı, ölkəmizin beynəlxalq əlaqələri artmağa başladı. Ermənistan-Azərbaycan münaqişə bölgəsində atəşkəsə nail olundu.

Bu gün Azərbaycan gələcəyə inamla inkişaf edən və daha da güclənən müstəqil dövlətdir. Azərbaycan müstəqillik illərində tarixi nailiyyətlərə imza atıb. Ötən dövrdə ölkəmiz müstəqil yaşamağa qadir olduğunu öz uğurları ilə sübut edib və artıq siyasi-iqtisadi müstəvidə onunla hesablaşırlar.

Respublika Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin söylədiyi "Azərbaycan tarixdə heç vaxt indiki qədər güclü olmayıb" fikirləri ölkəmizin qüdrətinin və nüfuzunun sarsılmaz olduğunu ifadə edir.

Məhz güclü Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcək, beynəlxalq təhlükəsizliyin qorunmasına, sivilizasiyalararası dialoqa, mədəniyyətlərin inteqrasiyasına, bəşəriyyəti narahat edən qlobal problemlərin həllinə, dünyada iqtisadi tərəqqiyə və əməkdaşlığa bundan sonra da təqdirəlayiq töhfələr verəcək.

**Yalçın Abbasov**

# ELXAN XƏZƏRİN UĞURLU SEÇİMİ



Döyüşçü-şair, Daxili Qoşunların veteranı, pedaqoq Elxan Xəzər növbəti kitabı ilə oxucuların görüşünə gəlib. Müəllif bu kitabında iki pyes və üç hekayəsini təqdim edir. Elxan Xəzər oxuculara bir çox şeir və poemaların müəllifi kimi daha çox tanış olsa da, zaman-zaman müxtəlif ədəbi janrlara müraciət etməkdən çəkinmir və etiraf etmək lazımdır ki, yaradıcılığın bu sahələrində də uğurlar qazanır, oxucunu düşünməyə vadar edir. Ümumiyyətlə, qeyd etmək istəyirəm ki, Elxan Xəzərin bütün yaradıcılığında oxunaqlıq, aktuallıq, dil rəvanlığı, dilimizin zənginlik xəzinəsindən sona qədər yararlanmaq bacarığı, yenilikçilik və digər mühüm xüsusiyyətlərlə yanaşı, məhz oxucusunu düşünməyə vadaretmə bacarığı diqqəti cəlb edən əsas amillərdən biridir.

Müəllif bu kitabından əvvəl də nəsr əsərlərinin toplandığı bir neçə kitabını çap etdirmişdir. Bu kitablarda müxtəlif mövzular öz əksini tapsa da, başlıca leytmotiv xalqımızın düçar olduğu bəlaları yaradan səbəblər, bu bəlalardan xilas yolları, milli birlik, vətənpərvərlik və əsasən də erməni faşizminin ifşası olmaqla, xüsusən yaxın tariximizdə baş verən hadisələrin bədii təsviridir.

"Nərgiz" nəşriyyatı tərəfindən sadə və maraqlı tərtibatla çap edilmiş "Uğursuz seçim" kitabı da Azərbaycan tarixinin təlatümlü bir mərhələsini özündə əks etdirir.

Kitabdakı ilk pyes "Yolgöstərən" adlanır. Bu pyesdə Azərbaycan maarifçiliyinin öncülləri - milli mətbuatın banisi Həsən bəy Zərdabinin, onun həyat yoldaşı və məsləkdaşı Hənifə xanımın, Nəcəf bəy Vəzirovun, Seyid Əzim Şirvaninin, Nəriman Nərimanovun xalqın nicatını maariflənməkdə görmələri, bu yolda xilas etməyə çalışdıqları xalqın içərisindən olan qaraguruhun onlara qarşı göstərdiyi cahil müqavimətdən bəhs olunur. Pyesdə xüsusilə Nərimanov və Zərdabi arasında xalqın gələcəyi barədə gedən dialoq maraqlı alınmışdır. Məlumdur ki, həmin dövrdə rus imperiyası sosialist inqilabının təlatümləri ilə çalxalanırdı. Nərimanov da xalqın gələcəyini məhz "sosial ədalət", "xalqlar bərabərliyi" şüarları ilə silahlanmış sosialist inqilabının qələbəsində görürdü. Dialoqun sonunda Nərimanov Həsən bəydən "Bəs nə edək, yolumuz nədir?" - deyə soruşur. Həsən bəy Zərdabi isə bu yolun milli oyanışda, maariflənməkdə və nəhayət, Qafqaz türklərinin öz müstəqil dövlətini yaratmasında görür. Məhz bu epizodda tarixi əhəmiyyətli bir məsələ də – Qafqaz türklərinin öz müstəqil dövlətini yaratmaq arzuları dilə gətirilir.

"Uğursuz seçim" pyesi də XX əsrin əvvəllərində baş verən hadisələrə – sosialist inqilabının qələbəsindən sonra xalqımızın başına




gətirilən müsibətlərə həsr olunub. Burada da müəllifin seçdiyi çox dinamik süjet xəttinin mərhələ-mərhələ açılmasında N.Nərimanov aparıcı obrazdır. Artıq onun ideoloji prinsiplərə bağlı optimistliyi real həyatın acı həqiqətlərinin diqtəsi ilə tərəddüdlərlə əvəz olunmağa başlayır. O, Bakıya toplaşmış yırtıcı xislətli bolşevik və onların içərisinə sızmış daşnak emissarlarla mübarizə aparmağa çalışır. Bu əsər ayrıca bir araşdırma predmetidir. Əsərin ərsəyə gəlməsində müəllifin apardığı çox ciddi tarixi araşdırmaların rolu var. Diqqətçəkən məqamlardan biri odur ki, siyasi proseslərin əks olunduğu əsərdə bədii ifadə tərzi öz zənginliyini uğurla tapır. Ümid edirəm ki, beş pərdədən ibarət olan, sosialist inqilabından sonrakı ağır bir dövrü özündə uğurla əks etdirən bu əsər gələcəkdə teatr səhnələrində də öz yerini tapacaqdır.

Kitaba müəllifin üç hekayəsi - "Qiymətli qiymət", "Fürsətgirlər" və "Miras" daxil edilmişdir. "Qiymətli qiymət" hekayəsi yazıçı-pedaqoq Mir Cəlalın pedaqoji və ictimai fəaliyyətinə yönəlib, onun tələbələrinə göstərdiyi qayğıya və həmişə ədaləti müdafiə etməsinə həsr olunub. "Fürsətgirlər" hekayəsində sosialist inqilabının yaratdığı "fürsət"dən istifadə edən ermənilərin Azərbaycanda törətdiyi soyqırımdan bəhs olunur. "Miras" isə ailədaxili və ictimai proseslərə həsr olunmuş maraqlı bir hekayədir.

Əminəm ki, kitab oxucuların diqqətini çəkəcək, seviləcək. Elxan Xəzəri məhsuldar yaradıcılığındakı bu uğurlu seçim münasibətilə təbrik edirəm, ona yeni yaradıcılıq uğurları arzulayıram!

**Səfxan Bayramov**

4_Layout 1 13.10.2018 16:27 Page 1



*Döyüş yolumuz*

# DAXİLİ QOŞUNLAR ZƏNGİLANIN MÜDAFİƏSİNDƏ...

**Zəngilan rayonu mənfur erməni təcavüzkarları tərəfindən sonuncu işğal edilmiş qədim yurd yerlərimizdəndir. Ermənistanın Azərbaycanın Füzuli və Cəbrayıl rayonlarını işğal etməsi nəticəsində Zəngilan 67 gün tam düşmən mühasirəsində qalmasına və heç bir yerdən köməklik olmadan Vətənimizin qəhrəman övladlarının şücaəti sayəsində müdafiə olunmasına rəğmən, 1993-cü ilin oktyabr ayının 29-da işğal edilib. İşğal nəticəsində rayon sakinlərindən 191 nəfəri şəhid, 110 nəfəri əlil olub, 44 nəfər isə girov götürülüb.**

**Doğma ata-baba ocaqlarını tərk etmək məcburiyyətində qalaraq respublikamızın müxtəlif şəhər və rayonlarına pənah gətirən 35 mindən artıq zəngilanlı soydaşımızın Vətən həsrəti bu gün də hər bir azərbaycanlının qəlbini göynədir...**




Zəngilan rayonunun bir sıra yaşayış məntəqələrinin, habelə yüksəkliklərinin müdafiəsi uğrunda gedən döyüşlərdə Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının şəxsi heyəti də fəal iştirak etmiş, düşmənə sarsıdıcı zərbələr vurmuşdur.

Daxili Qoşunların "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adına layiq görülmüş doqquz nəfər hərbi qulluqçusundan iki nəfəri – ehtiyatda olan polis polkovniki Məmmədov Sahil Ələmdar oğlu və baş leytenant Abdullayev Rövşən Abdulhüseyn oğlu (ölümündən sonra) məhz Zəngilanın müdafiəsi uğrunda gedən döyüşlər zamanı fərqləndiklərinə görə bu yüksək mükafatla təltif edilmişlər.

Bununla yanaşı, qoşunların cəsur hərbi qulluqçularından – baş leytenant Dəmirov İbadulla Ağabala oğlu, leytenant Namazov Etibar Almaz oğlu, gizir Maşıyev Nemət Mütəllim oğlu, çavuş Aslanov Eldar Əfraz oğlu, əsgərlərdən - Abdinov Sərvər Famil oğlu, Ağayev Yavər Balaxan oğlu, Bayramov Səxavət Allahverdi oğlu, Bədirov Rövşən Əlixan oğlu, Həmidov Mehman Hüseyn oğlu, Həziyev Əjdər Mehdi oğlu, Hüseynov Cəmil Hüseynəli oğlu (siyahıda atasının adı Hüseynağa, həlak olduğu yer yanlış olaraq Ağdam kimi qeyd olunub - A.Ə.), Kərimov Güləhməd Əhməd oğlu, Qafarov Xanlar İsbət oğlu, Qəhrəmanov Samiq Məhərrəm oğlu, Məhərrəmov Ceyhun Məhərrəm oğlu, Orucov Elşən Zülfüqar oğlu, Ömərov Fazil Nəriman oğlu, Şabanov Şaban Cabbar oğlu, Abdullayev Habil Murad oğlu və Əliyev Sahib Qambay oğlu rayonun müdafiəsi uğrunda son damla qanlarınadək vuruşaraq əbədi ölümsüzlüyə - şəhidlik zirvəsinə yüksəlmişlər.



Adları Daxili Qoşunların "1992-1994-cü illərdə döyüş əməliyyatları zamanı itkin düşmüş hərbi qulluqçularının siyahısı"nda olan və Zəngilanda itkin düşməsi göstərilən silahdaşlarımızdan (əsgərlər - Abbasov Vaqif Əli oğlu, Abdullayev İlham Bayram oğlu, Ağahüseynov Qabil Adil oğlu (siyahıda adı Habil kimi qeyd olunub - A.Ə.), Aslanov Mahir Hüseynağa oğlu, Aslanov Zəfər Məhərrəm oğlu, Behbudov Abbas Behbud oğlu, Hüseynov Samir Qənbər oğlu, Nağıyev Rahim Veysəl oğlu və Şirəliyev Mehman Qaçay oğlu) bir qisminin döyüşlər zamanı həlak olduğu üçün dəfn edildiyi, bir qisminin isə qeydiyyatda olduğu ünvanlar üzrə rayon məhkəmələrinin çıxardıqları müvafiq qətnamələrə əsasən Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyü uğrunda Zəngilanda gedən döyüşlər zamanı itkin düşdüyünə görə ölmüş elan olunması, əsgər Məhyəddinov Məhərrəm Fərrux oğlunun isə Ermənistanda əsirlikdə olarkən işgəncələrə məruz qalaraq, daşnaklar tərəfindən güllələnməsi faktları müəyyənləşdirilmişdir.

Bundan əlavə, Daxili Qoşunların Arxivində saxlanılan "1992-1994-cü illərdə gedən döyüş əməliyyatları zamanı yaralananların siyahısı"nda 17 nəfər hərbi qulluqçumuzun Zəngilan döyüşlərində yaralanması qeyd olunmuşdur.

Məqalədə yarımbaşlıqlar altında Daxili Qoşunların 5456 (hazırkı 99713) saylı hərbi hissəsinin vaxtilə Zəngilanda fəaliyyət göstərən əlahiddə taborunun, həmçinin, sonralar bu taborun əsasında yaradılmış 16072 saylı hərbi hissəsinin tərkibində xidmət etmiş veteran silahdaşlarımızın xatirələrindən, bu günədək dövri mətbuatda işıqlandırılan və Qarabağ savaşından bəhs edən müəllif yazılarından, həmçinin, arxiv materiallarından geniş istifadə etməklə, faktlar əsasında, baş vermiş hadisələrin tarixi xronoloji ardıcıllığına uyğun olaraq, qoşunların 1992-1993-cü illərdə həmin rayondakı fəaliyyətinə geniş aydınlıq gətirməyə çalışmışıq.

**(davamı gələn sayımızda)**

**kapitan Anar Əhmədov**

*Metodiki vəsait*

# SOYUQDƏYMƏDƏN YARANAN XƏSTƏLİKLƏR VƏ ONLARA QARŞI GÖRÜLƏN PROFİLAKTİK TƏDBİRLƏR

***Son günlər insanlar arasında yayılan soyuqdəymədən törənən xəstəliklər artıq təşviş yaradır. Belə ki, bir çoxları bunun epidemiya olduğunu düşünürlər. Respublika Səhiyyə Nazirliyindən isə bildirilir ki, yayılan xəstəliklər virus xəstəlikləri olub, epidemiya hesab olunmur.***



Soyuqdəymədən yaranan xəstəliklər mövsümi olaraq ilin soyuq fəsillərində rast gəlinir və bu da payız-qış mövsümündə bədənin soyuması nəticəsində insan orqanizminin reaktivliyinin azalması ilə əlaqədar olur. Xəstəliyin geniş yayılmasının əsas səbəbi havanın dəyişkən keçməsidir. Dəyişkən havada viruslar daha da aktivləşir. Viruslar özlərini hər dəfə yeni formada təqdim etdikləri üçün xəstələnmə hallarına tez-tez rast gəlinir. Soyuğun təsiri ilə tənəffüs yollarında kəskin respirator xəstəliklər müşahidə olunur. Xəstəlikləri bakteriyalar və viruslar törədə bilər. Virusların sayı minlərlədir və hər bir virus tərəfindən bu xəstəlik törənəndə xəstəliyin 100-dən artıq əlamətləri olur. Bu xəstəliklərin artmasının əsas səbəblərindən biri də insanların kollektiv şəkildə bir yerdə cəmləşməsidir. Xəstəliklərin qarşısı vaxtında alınmazsa, sonradan ağır və qorxulu fəsadlar - haymorit, ağciyərlərin iltihabı, pnevmoniya baş verə bilər. Bəzən ağır dərəcədə baş-beyin zədələnməsi - meningitlərin inkişaf edə biləcəyi istisna olunmur.

İlkin mərhələdə simptomlar hiss edilən anda onun qarşısını almaq üçün profilaktik tədbirlərin görülməsi daha məqsədəuyğundur. Bəzən buna etinasız yanaşılır ki, nəticədə temperatur uzun müddət davam edir, prosesə öskürək, iştahasızlıq, ishal və digər əlamətlər də qoşulur. Bundan sonra isə ciddi fəsadlar baş verir. Eyni virus üç müxtəlif şəxsdə özünü müxtəlif formada büruzə verir. Məsələn, xəstəlik birində quru öskürək, digərində iştahasızlıq, başqa birində bəlğəmli öskürəklə müşahidə oluna bilər. Ona görə də xəstəni eyni dərmanlarla müalicə etmək düzgün deyil. İlkin simptomlar özünü göstərdikdən sonra həkimlə məsləhətləşərək fərdi qaydada düzgün tədbirlərin görülməsi daha yaxşıdır. Bu, fərdi olduğu üçün xəstəliyə fərdi yanaşıb, ehtiyac olduqda lazımi müalicə götürmək lazımdır.

Xəstəliyin geniş yayılmasının səbəblərindən biri də insanların özünü qorumamağıdır. Belə vaxtlarda çoxlu meyvə-tərəvəz və vitamin qəbul edilməli, xəstə olan insanlar arasında kontakt minimuma endirilməlidir. Evdə, bağçada, məktəbdə, iş yerlərində gigiyenik tədbirlərin daha da gücləndirilməsi və antiseptik məhlullardan istifadə olunması xəstəliyin rastgəlmə tezliyini azalda bilər.

Hərbi hissələrdə aparılan profilaktik tədbirlərə isə aşağıdakılar aiddir:

- soyuq və küləkli havada çöl məşğələlərinin keçirilməsini məhdudlaşdırmaq;



- şəxsi heyətin tam və səmərəli qidalanmasına nəzarəti artırmaq;
- kazarmalarda təmizlik işlərini nəm üsulla, gündəlik olaraq aparmaq, otaqların düzgün ventilyasiya olunmasını nəzarətdə saxlamaq, temperatur rejimini daima qoruyub saxlamaq;
- kazarmalardakı su qablarında daima qaynanmış su olmasını və şəxsi heyət tərəfindən gündəlik olaraq rasiondan əlavə, gigiyenik normalar gözlənilməklə isti suyun qəbul edilməsini təşkil etmək;
- yeməyə menyudan başqa, soğan və sarımsağın, o cümlədən, Heksavit vitamininin əlavə olunmasını təşkil etmək;
- hamam tədbirlərinin keçirilməsini ciddi nəzarətə götürmək, şəxsi heyəti soyuqdəymədən qorumaq;
- şəxsi heyətin mövsümə uyğun geyim formasını daşımasını daima ciddi nəzarətdə saxlamaq;
- şəxsi heyətin soyuq su qəbul etməsini qadağan etmək;
- şəxsi heyətin yerləşdirilməsində sıxlığa yol verməmək üçün müvafiq tədbirləri həyata keçirmək və daima nəzarətdə saxlamaq;
- yemək və çayın isti halda verilməsini, o cümlədən, suya, yaxud çaya meyvə-giləmeyvə ekstraktlarının əlavə olunmasını təşkil etmək.

**DQBİ-nin Sanitar-Epidemiologiya Dəstəsi**

*NÜMUNƏVİ XİDMƏT*

# DAXİLİ QOŞUNLARDA XİDMƏTİMLƏ FƏXR EDİRƏM

Daxili Qoşunların sıralarında nizam-intizamı və nümunəvi xidmətilə seçilən hərbi qulluqçular barədə "Əsgər" qəzetinin hər sayında məlumat verilir. Sadalanan keyfiyyətləri özündə cəmləşdirən hərbi qulluqçulardan biri də 67987 saylı hərbi hissənin əsgəri baş əsgər Nurlan Əsədovdur.

O, 1995-ci il oktyabrın 5-də Qusar rayonunun Ənix kəndində dünyaya göz açıb. 2013-2017-ci illərdə Sumqayıt Dövlət Universitetinin "Tarix-Coğrafiya" fakültəsində ali təhsil alıb. 2017-ci ilin oktyabrından müddətli həqiqi hərbi xidmət keçməkdədir. Baş əsgər N.Əsədov komendant bölüyündə manqa komandiridir. Yoldaşları arasında böyük nüfuza sahib olan baş əsgər N.Əsədov komandirləri tərəfindən də müsbət xarakterizə olunur. Manqada günün nizam qaydalarına riayət olunmasına, daxili nizam-intizamın qorunub saxlanılmasına cavabdehlik daşıyır.

Tabeliyində olan şəxsi heyətin təlim-tərbiyəsinə, hərbi intizamına və mənəvi vəziyyətinə, sıra hazırlığına, zahiri görkəminin səliqəsinə nəzarət edir. Manqa komandiri kimi tələbkar olmasına baxmayaraq, eyni zamanda hərbi qulluqçuların qayğısına qalır, onların ehtiyaclarını dərindən öyrənir, xidmətə yeni qəbul olunmuş hərbi qulluqçularda dözümlülük, cəsarətlilik kimi xüsusiyyətlərin formalaşması üçün səy göstərir. Verilən tapşırıqları vaxtında və düzgün icra edir, döyüş xidmətini yerinə yetirdiyi zaman ayıq-sayıqdır və ona tapşırılmış postu "göz bəbəyi" kimi qorumağı bacarır. Elə bu səbəbdəndir ki, komandirləri tərəfindən müsbət xarakterizə olunur və müxtəlif mükafatlara layiq görülüb.

Nurlan həm də idmançıdır. O, xidmətə gəlməmişdən öncə armlestinqlə məşğul olub və bir sıra nailiyyətlərə imza atıb. Belə ki, idmanın adıçəkilən növü üzrə



78 kq. çəki dərəcəsində keçirilən respublika turnirində III yerə çıxıb. Ölkə universitetləri arasında isə I yerə layiq görülüb. Baş əsgər N.Əsədov həqiqi hərbi xidmətdən sonra da idman sahəsində qazandığı uğurları davam etdirmək niyyətindədir. Biz də ona bu yolda müvəffəqiyyətlər arzulayırıq.

**67987 saylı hərbi hissənin ştatdankənar müxbir postu**

# HƏRBİ XƏBƏRLƏR

*-YENİLİKLƏR-*



## Cənub Hərbi Dairəsi bu il 450 ədəd hərbi texnika əldə edib

Rusiya Silahlı Qüvvələrinin tərkibindəki Cənub Hərbi Dairəsi, o cümlədən, Qara dəniz və Xəzər dənizi flotiliyaları, həmçinin, xüsusi təyinatlı qüvvələr 450 ədəd yeni hərbi texniki təchizat əldə edib.

Ordu.az xəbər verir ki, bu hərbi təchizata zirehli texnika, artilleriya qurğuları, kommunikasiya və elektron müharibə vasitələri, aviasiya vasitələri və s. aiddir.

Bunların içində daha çox önə çıxanlar T-72B3 tankları, BMP-3 piyada döyüş vasitələri, BTR-82A zirehli personal daşıyıcıları və 2S19M2 artilleriya qurğularıdır.

Qeyd edək ki, bu il ərzində Cənub Hərbi Dairəsinə əsasən Su-25SM3 və An-148-100 olmaqla, ümumilikdə, 10 ədəd təyyarə, 20 ədəd pilotsuz uçuş aparatı təhvil verilib.



## Çin yeni hərbi PUA-nı təqdim edib

Çin Xalq Azadlıq Ordusu özünün yerli istehsal olan yeni pilotsuz uçuş vasitəsini nümayiş etdirib.

Ordu.az xarici KİV-lərə istinadən xəbər verir ki, PUA-ya "Caihong 5" (CH-5) adı verilib.

Orta yüksəklikli, uzunmüddətli istifadə müddətinə malik PUA sinfindən olan CH-5 min kiloqrama qədər faydalı yük daşıya bilir.

## ABŞ yeni robot döyüşçüsünü təqdim edib

ABŞ-ın "Northrop Grumman" şirkəti avtomat silah və artilleriya qur-



ğusuna inteqrasiya edilmiş yeni robotunu təqdim edib.

Ordu.az xəbər verir ki, bu barədə rəsmi məlumat şirkətin mətbuat xidmətindən verilib.

Bildirilib ki, sözügedən yeni vasitə Pentaqonun xüsusi tələbi əsasında təkmilləşdirilib və qiyməti 600 min dollara yaxındır.

## Allah rəhmət eləsin

Daxili Qoşunların Komandanlığı **e.o. polkovnik-leytenant Vüqar Aydınovun** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Daxili Qoşunların Komandanlığı mayor Xosrov İbrahimova anasının vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

**TƏSİSÇİ:**
**Azərbaycan Respublikası DİN Daxili Qoşunların Baş İdarəsi.**
Redaktor: Anar Əhmədov

**REDAKSİYANIN ÜNVANI:**
**AZ 1130, Bakı şəhəri, Q. Musabəyov küç. 4, Daxili Qoşunların Baş İdarəsi.**
**Əlaqə telefonları: 560-22-63**

**Qəzet ayda 2 dəfə nəşr olunur. "Əsgər" qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.**

**Şəhadətnamə 3565**
**Sayı 3000**